İSA HƏBİBBƏYLİ



# HÜSEYN CAVİD

## Həyatı və sənəti

İSA HƏBİBBƏYLİ

# HÜSEYN CAVİD
# Həyatı və sənəti

***Sənətkarın elmi pasportu – 33***

(Hüseyn Cavid – 140)

Azərbaycan MEA Nizami
adına Ədəbiyyat İnstitutunun
kitabxanası
İnv. № 49057

"Elm və təhsil"
Bakı - 2022

UOT: 821.512.162
H50

*Hüseyn Cavidin Ev Muzeyinin Elmi Şurasının 18 oktyabr 2022-ci il tarixli, 9 saylı iclasının qərarı ilə çapı tövsiyə olunmuşdur*

**Elmi redaktor:**

**Gülbəniz BABAXANLI**
*filologiya elmləri doktoru,*
*Əməkdar mədəniyyət işçisi*

H50 **Həbibbəyli İsa. Hüseyn Cavid. Həyatı və sənəti. Sənətkarın elmi pasportu – 33.** Bakı, "Elm və təhsil", 2022, – 104 səh.

**ISBN: 978-9952-534-39-9**

Kitabda qüdrətli şair-dramaturq və böyük mütəfəkkir Hüseyn Cavidin (1882-1941) keşməkeşli həyat yolundan və bədii yaradıcılığının özünəməxsus sənətkarlıq xüsusiyyətlərindən bəhs edilir.

© *İsa Həbibbəyli, 2022*
© *Hüseyn Cavidin Ev Muzeyi, 2022.*

# GİRİŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi Sərəncamı ilə görkəmli romantik şair və dramaturq Hüseyn Cavidin anadan olmasının 140 illiyi ölkəmizdə yüksək səviyyədə və geniş şəkildə qeyd olunur. Möhtərəm Prezidentimizin Sərəncamında deyildiyi kimi, filosof-şair Hüseyn Cavid Azərbaycan poeziyasında fəlsəfi lirikanın dəyərli nümunələrini meydana gətirmiş, humanist ideyalar uğrunda mübarizəyə səsləyən mənzum faciələri və tarixi dramları ilə Azərbaycan dramaturgiyasında yeni mərhələnin təməlini qoymuşdur"[1]. Həqiqətən də XX əsrin əvvəllərində Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" ədəbi məktəbinin, Mirzə Ələkbər Sabir satirik şeir məktəbinin əsasını qoyduğu kimi, Üzeyir Hacıbəylinin ilk Azərbaycan operasını səhnəyə çıxarması səviyyəsində Hüseyn Cavid də Azərbaycan ədəbiyyatında romantik şeirin, mənzum romantik dramaturgiyanın və nəhayət, romantizm ədəbi cərəyanının banisi olaraq qəbul edilir. Bu mənada Hüseyn Cavidin yaradıcılığı çoxəsrlik Azərbaycan ədəbiyyatı tarixində yeni və mühüm bir mərhələ təşkil edir.

---

[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Hüseyn Cavidin 140 illiyinin qeyd edilməsi haqqında" Sərəncamı // "Azərbaycan qəzeti", 25 sentyabr 2022-ci il.

Məlum olduğu kimi, Azərbaycan ədəbiyyatında romantik poeziya əsasən qədim dövr və orta əsrlərdə inkişaf etmiş, özünün böyük ənənələrini və qüdrətli korifeylərini yetişdirmişdir. Lakin Azərbaycan klassik şeiri nümunələrinə XVII-XIX əsrlərdə o qədər nəzirə və bənzətmələr yazılmışdır ki, poeziya həmin epiqon ədəbiyyatın təsiri altında olmuş və inkişaf edə bilməmişdir. Buna görə də Mirzə Fətəli Axundzadə bütövlükdə ədəbiyyatı, xüsusən də şeiri klassik romantik lirika ənənəsinin "əsarətindən" xilas etmək üçün nəzirə ədəbiyyatına qarşı mübarizə aparmış və hətta daha çox təsir dairəsinə malik olan orta əsr Azərbaycan lirikasının böyük ustadı Məhəmməd Füzulinin xidmətlərini inkar edərək, onu "nazimi ustad"[1] adlandırmağa məcbur olmuşdur. Beləliklə, Hüseyn Cavidin yaradıcılığa başladığı XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında artıq bir əsr idi ki, romantik şeir dövrü arxada qalmışdı. Artıq Qasım bəy Zakirin və Seyid Əzim Şirvaninin realist üslubda yazılmış şeirləri meydan oxumaqda idi. Buna baxmayaraq, Hüseyn Cavid Naxçıvan şəhərindəki "Tərbiyə" məktəbinin şagirdi ikən müəllimi, böyük maarifçi şair Məhəmməd Tağı Sidqinin təsiri ilə klassik lirika üslubunda şeirlər yazmağa başlamışdır. Və hətta Məhəmməd Tağı Sidqi "Gülçin" təxəllüsü ilə

---

[1] Mirzə Fətəli Axundov. Əsərləri, 3 clddə, II cild, Bakı: AzSSR EA, 1961, s. 202.



klassik üslubda şeirlər yazan şagirdinin ilk qələm təcrübələrini yüksək qiymətləndirərək demişdir: "Mən atan Molla Abdullanın yerinə olsaydım və Gülçin kimi bir şair oğlum olsaydı, rövzəxanlığı buraxıb, xanəndəlik edərdim və həmişə Racinin yox, öz oğlumun şeirlərini oxuyardım"[1].

XX əsrin əvvəllərində baş vermiş böyük ictimai-siyasi hadisələr Azərbaycan ədəbiyyatında bütün istiqamətlər üzrə Abbas Səhhətin sözləri ilə desək, "təzə səpkidə"[2] yeniləşmə hərəkatına geniş yol açmışdır. Bu baxımdan, təzə əsrin ibtidasında Azərbaycan ədəbiyyatında gerçəkliyi fəsahət və bəlağətlə və... xəyalati-mühəyyisə ilə (xəyallardan düzəldilmiş fikirlərlə)[3] tərənnüm edən romantik şeir də yenidən dirçəlmiş və daha da inkişaf etmişdir. Hüseyn Cavidin lirikası da bu zəmində XX əsrin əvvəlləri Azərbaycan romantik şeirinin mühüm ədəbi hadisəsi kimi meydana çıxmışdır. Görkəmli romantik şair böyük ədəbi ənənəsi olan Azərbaycan romantik şeirini yeni mövzular, milli və bəşəri ideyalarla daha da zənginləşdirmiş, ilk dəfə olaraq klassik poetik formalarla xalq şeiri şəkillərini birləşdirmiş, sonet, marş, türkü, şərqi kimi janrları romantik poeziyaya gə-

---

[1] Məmməd Cəfər. Hüseyn Cavid. Bakı: Elm və təhsil, 2019, s. 41.
[2] Abbas Səhhət. Təzə şeir necə olmalıdır // "Həyat" qəzeti, 23 iyul 1905, № 14.
[3] Əli bəy Hüseynzadə. "Həyat" və meyli-"Füyuzat" // "Füyuzat" jurnalı, 1 noyabr, 1906, № 1. s. 4.

tirmişdir. Bu mənada Hüseyn Cavid Azərbaycan romantik şeirini XX əsrin əvvəllərində yenidən canlandırmış və yüksək inkişaf mərhələsinə çatdırmışdır.

Bundan başqa, Azərbaycan ədəbiyyatında romantik mənzum faciə janrının yaranması və inkişafı da birbaşa Hüseyn Cavidin adı ilə bağlıdır. Hüseyn Cavidə qədər XIX əsrdə Azərbaycan ədəbiyyatında Mirzə Fətəli Axundzadə tərəfindən komediya janrında qiymətli ədəbi əsərlər yaradılmış, XX əsrin əvvəllərində dram sənətinə Cəlil Məmmədquluzadənin alleqorik dram və tragikomediyaları da əlavə olunmuşdur. Mərasim folklorundakı şəbih səhnəciklərini nəzərə almasaq, Hüseyn Caviddən əvvəl Azərbaycan ədəbiyyatında mənzum dram ənənəsi olmamışdır. Azərbaycan ədəbiyyatının çoxəsrlik inkişafı yolunda ilk dəfə olaraq Hüseyn Cavid möhtəşəm mənzum dramlar yaratmışdır. Hüseyn Cavidin faciələri və tarixi dramları mənzum olmaqla yanaşı, həm də romantik-fəlsəfi xarakterə malik dram əsərləri kimi də tam yeni hadisə idi. Hüseyn Cavidin mənzum romantik dramları və faciələri böyük ideallar, xarakterlər və ehtiraslar dramaturgiyasıdır. "Kəssə hər kim tökülən qan izini, qurtaran dahi odur yer üzünü" kimi böyük ideallar, yaxud "İblis nə demək, cümlə xəyanətlərə bais, ya hər kəsə xain olan insan nədir? – İblis", və ya "Məhəbbətdir ən böyük din" kimi çoxsaylı dərin fəlsəfi fikirlər Hüseyn Cavidin dramaturgiyasında səsləndirilən bəşəri məzmuna malik aforizmlərdir. Məhz Hüseyn Cavidin



dramaturgiyası vasitəsilə ədəbiyyatımıza Şeyx Sənan və Xumar, Cəlal və Göyərçin, İblis və Arif, Peyğəmbər və Mələk, Səyavuş və Rüstəm kimi bir-birindən fərqli romantik xarakterə malik olan bənzərsiz insanların, Teymur, İldırım Bəyazid, Xəyyam kimi ədəbi-tarixi şəxsiyyətlərin surətlərini gətirmişdir.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının yaradılması və inkişafında Hüseyn Cavidin müstəsna xidmətləri vardır. Hüseyn Cavid müasirləri olmuş digər görkəmli romantik yazıçı və şairlər: Əli bəy Hüseynzadə, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq və başqaları ilə birlikdə romantik ədəbiyyat cəbhəsində ardıcıl olaraq çalışmaqla romantizm ədəbi cərəyanının formalaşmasında çox fəal və yaxından iştirak etmişdir. Doğrudur, Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanı əsasən ilkin olaraq Əli bəy Hüseynzadənin "Füyuzat" jurnalının bazasında formalaşmışdır. Lakin məlum olduğu kimi, 1906-cı ildə fəaliyyətə başlayan "Füyuzat" jurnalı cəmi bir ildən sonra 1 noyabr 1907-ci ildə bağlanmış və jurnalın baş redaktoru Əli bəy Hüseynzadə qısa bir müddətdə Bakıda maarifçilik fəaliyyəti ilə məşğul olmuş və 1909-cu ildə Türkiyəyə köçmüşdür. Digər görkəmli romantik şair Məhəmməd Hadi də XX əsrin əvvəllərində bir müddət Türkiyədə mətbuat sahəsində çalışmış, I Dünya müharibəsi cəbhələrində Azərbaycandan kənarda fəaliyyət göstərmişdir. Şamaxıda yaşayan Abbas

Səhhət və Bakıda çalışan Abdulla Şaiq isə həm realist və həm də hər iki istiqamətdə yazıb yaratdıqları və əsasən maarif cəbhəsində çalışdıqları üçün ədəbiyyatın bu istiqamətdəki inkişafına ciddi təsir göstərmək imkanlarına malik deyildilər. Hüseyn Cavid isə 1905-ci ildə İstanbul Universitetinin Ədəbiyyat fakültəsini bitirib, vətənə qayıtdıqdan sonra Azərbaycan ədəbiyyatının əsas inkişaf mərkəzlərindən olan Bakıda, Tiflisdə, Naxçıvanda və Gəncədə yaşayıb-yaratmış, ölkə mətbuatında ardıcıl olaraq şeirlərlə çıxış etmiş, şeir kitablarını nəşr etdirmiş, dram əsərlərini səhnədə göstərmiş və böyük maraqla qarşılanmışdır. Bütün bunlara görə romantizmin "Füyuzat" jurnalı zəminində ədəbi cərəyan kimi ilkin formalaşması dövründən sonrakı inkişafında Hüseyn Cavidin xüsusi xidmətləri olmuşdur. O, XX əsrin əvvəllərində müasirləri ilə birgə geniş əlaqə şəraitində yazıb-yaratmış, romantik ədəbiyyata gətirdiyi yeni mövzular və ideyalarla, fərqli janrlar və obrazlarla ədəbi mühitə daha fəal təsir göstərmişdir. Beləliklə, Hüseyn Cavid Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsas yaradıcısı missiyasını yerinə yetirmişdir. Buna görə də digər Azərbaycan romantiklərinin də xidmətlərini yüksək qiymətləndirməklə bərabər, deyə bilərik ki, Hüseyn Cavid Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsaslarını yaratmış və bu ədəbi cərəyanın banisi və yaradıcısı olmuşdur.



Azərbaycan ədəbiyyatında romantizmin estetikası və poetikası romantik müasirləri arasında ən geniş və sistemli şəkildə Hüseyn Cavidin yaradıcılığında öz əksini tapmışdır. Azərbaycan romantizminin ideya əsaslarının yaradılmasında, ədəbi istiqamətlərinin müəyyən edilməsində, romantik şeirin poetik formalarının yeniləşdirilməsi və zənginləşdirilməsində Hüseyn Cavidin xüsusi xidmətləri vardır. Fikrimizcə, Hüseyn Cavidin çoxcəhətli yaradıcılığı olmadan Azərbaycan ədəbiyyatında romantizmin ədəbi cərəyan səviyyəsinə çatdırılması çətin ki, mümkün ola bilərdi. Yeni Azərbaycan romantikləri ədəbi nəsli daha çox Hüseyn Cavidin bütöv parlaq şəxsiyyətinin və böyük sənətinin zəminində formalaşmışdır. Hüseyn Cavid Azərbaycan romantizminin formalaşdırılması və inkişafında əsas ədəbi fiqurdur. Hüseyn Cavid ölməz əsərləri ilə Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsas ideya-estetik, milli-ədəbi və ictimai-bəşəri dəyərlərini yaşatmış, inkişaf etdirmiş, romantik sənətin bənzərsiz poetikasını meydana qoymuşdur. Sonrakı dövrlərdə də Azərbaycan ədəbiyyatında romantik ənənənin yaradılması və yaradıcı şəkildə davam etdirilməsi Hüseyn Cavidin adı və sənəti ilə üzvi surətdə bağlıdır. Azərbaycan ədəbiyyatında romantizm dedikdə ilk növbədə Hüseyn Cavid yada düşür. Hüseyn Cavidin adı ədəbiyyatda romantizm ədəbi cərəyanı məfhumu ilə sinonimdir. Azərbaycan ədəbiyyatında XX əsrin əvvəllərindən başlayıb bizim günlərə qədər davam

edən romantik şeir və mənzum dram ənənələrinin inkişaf etdirilməsində Hüseyn Cavidin müstəsna xidmətləri xüsusi ehtiramla qeyd edilməyə layiqdir.

Hüseyn Cavidin dram əsərləri XX əsrin əvvəllərindən etibarən Azərbaycan teatrlarında uğurla tamaşaya qoyulmuşdur. İndi də ölkəmizin teatrları Hüseyn Cavidin dramaturji irsinə ardıcıl olaraq müraciət edirlər. Ölkəmizdə cəmisi bir neçə görkəmli sənətkarın adı ilə bağlı teatr məktəbləri yaranmışdır ki, onlardan biri də Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Səməd Vurğun, İlyas Əfəndiyev teatrı ilə yanaşı, həm də Hüseyn Cavid teatrıdır.

Yeni dövr Azərbaycan romantik ədəbiyyatının böyük korifeyi Hüseyn Cavidin ədəbiyyatın və ictimai fikrimizin inkişafındakı rolu və xidmətləri Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Hüseyn Cavidin ölməz sənətinə yüksək qiymət vermiş və qüdrətli sənətkarın adının əbədiləşdirilməsi sahəsində tarixi xidmətlər göstərmişdir. Azərbaycan KP Mərkəzi Komitəsinin 1981-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illiyinin dövlət səviyyəsində qeyd olunması ilə əlaqədar qərar qəbul etməsi əsassız yerə repressiya qurbanı olmuş və yalnız 1957-ci ildə günahsız hesab edilmiş Hüseyn Cavidə verilmiş həqiqi siyasi bəraətin ifadəsidir. “Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında”kı qərarındakı aşağıdakı müddəalar böyük mütəfəkkir sənətkarın ölməz sənətinə dövlət səviyyəsində bəslənilən yüksək münasibəti diqqətə çatdırır: “Hüseyn Cavidin tarixi, aşiqanə-fəlsəfi mövzularda yazılmış... pyesləri nəinki Azərbaycan, həm də bütün çoxmillətli sovet mədəniyyətinin inciləridir. Bu əsərlərdə... romantik yazıçının yüksək humanist idealları, əfsanəvi qəhrəmanların, şairlərin və mütəfəkkirlərin həyatsevərliyi və azadfikirliyi dərin əksini tapmışdır. Hüseyn Cavid obrazları səhnə mədəniyyəti xadimlərinin bütöv bir nəsli üçün məktəb olmuşdur. Hüseyn Cavidin incə lirizm və dərin psixologizmlə, humanizm və beynəlmiləlçiliklə aşılanmış əsərləri Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil olmuşdur”.[1]

Eyni zamanda, görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi və iştirakı ilə 1982-ci ildə Hüseyn Cavidin nəşinin uzaq Sibirdən Azərbaycana gətirilməsi sovet hakimiyyəti dövründə əlçatmaz bir əfsanənin həyata keçirilməsinin real təntənəsi olan misilsiz siyasi-tarixi hadisədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Hüseyn Cavidin anadan olmasının 140 illiyinin qeyd edilməsi haqqındakı 24 sentyabr 2022-ci il tarixli Sərəncamı xalqımızın böyük sənətkarına müstəqil dövlətimizin verdiyi yüksək dəyərin əməli ifadəsidir. Sərəncamda

[1] Azərbaycan KP Mərkəzi Komitəsində Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında qərar qəbul edilmişdir // “Kommunist” qəzeti, 21 iyul 1981.

böyük mütəfəkkir sənətkarın böyük sənəti və parlaq şəxsiyyətinin mahiyyəti və əhəmiyyəti bütün reallıqları və özünəməxsusluqları ilə obyektiv mövqedən qiymətləndirilir: "Hüseyn Cavid fəlsəfi müdrikliyin və bədii kamilliyin ahəngdar vəhdətini dolğun təcəssüm etdirən yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixinə işıqlı səhifələr yazmışdır. O, bütün ədəbi fəaliyyəti boyu həqiqəti, insanpərvərliyi və gözəlliyi tərənnüm etmişdir. Şərq poetik fikri zəminində yüksələn və dünya romantizm ənənələrindən uğurla bəhrələnən filosof-şair Azərbaycan poeziyasında fəlsəfi lirikanın dəyərli nümunələrini meydana gətirmişdir. Qüdrətli sənətkar humanist ideallar uğrunda mübarizəyə səsləyən mənzum faciələri və tarixi dramları ilə Azərbaycan dramaturgiyasında yeni mərhələnin təməlini qoymuşdur.

... Hüseyn Cavid sovet rejiminin ən sərt təzyiqləri şəraitində belə mənən sarsılmayaraq şəxsiyyətinin bütövlüyünü ləyaqətlə qorumuşdur. Ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Cavidin nəşinin 40 il öncə uzaq Sibirdən vətəninə gətirilməsi və məzarı üzərində məqbərənin ucaldılması adı sovet totalitarizminin günahsız qurbanlarının" rəmzinə çevrilmiş sənətkarın və ...Repressiyalara uğramış Azərbaycan ziyalılarının xatirəsinə ehtiramın ifadəsidi.[1]

[1] Azərbaycan Respublikası Prezidentinin "Hüseyn Cavidin 140 illiyinin qeyd edilməsi haqqında" Sərəncamı // Bax: "Azərbaycan" qəzeti, 25 sentyabr 2022-ci il.



İndi Hüseyn Cavidin yubileyi dahi şair-dramaturqun arzu etdiyi müstəqil Azərbaycan dövlətində və onun inkişaf etmiş azad vətənində qeyd olunur.

Hüseyn Cavid vaxtilə şeirlərindən birində doğma vətəninə münasibətini aşağıdakı kimi mənalandırmışdır:

*Deyir göydə bağçalar var,*
*Orda çiçəklər nur saçar,*
*İnsan mələk kimi uçar,*
*İstəməm, masaldır onlar.*
*Mən vuruldum yalnız sana,*
*Vətən, ah sevgili ana!*[1]

Bu gün Hüseyn Cavidin ölməz adı da, böyük sənəti də doğma vətənində sevilir, öyrənilir və yüksək qiymətləndirilir.

Hüseyn Cavid sənəti ədəbiyyatın əbədiyyət rəmzidir.

[1] Hüseyn Cavid, Əsərləri, 5 cilddə, III cild, Bakı: Elm, 2007, s. 233

## HƏYATI

Hüseyn Molla Abdulla oğlu Rasizadə 24 oktyabr 1882-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. O, əvvəlcə Naxçıvan şəhərindəki mollaxanada oxuyub ərəb-fars dillərini öyrənmiş, Şərq tarixi və ədəbiyyatına dair ilkin biliklər əldə etmişdir. 1895-ci ildən Məhəmməd Tağı Sidqinin Naxçıvan şəhərində açdığı yeni tipli "Tərbiyə" məktəbində oxumağa başlamışdır. Onu ruhani kimi görmək istəyən bütün Qafqaz müsəlmanları içində mərsiyəxanlıqda birincilik qazanmış[1] Hacı Molla Abdulla oğlunun "Məktəbi-Tərbiyə"də oxumasından narazı qalmış və onu bu məktəbdən çəkindirməyə çalışmışdır. Lakin gənc Hüseyn Rasizadə Naxçıvanda dövrünün maarifpərvər ziyalılarından olan Qurbanəli Şərifzadənin və müəllimi, tanınmış maarifçi şair və pedaqoji Məhəmməd Tağı Sidqinin məsələyə müdaxiləsi və dəstəyi sayəsində "Tərbiyə" məktəbində dərslərinə davam edə bilmişdir. Bu münasibətlə Məhəmməd Tağı Sidqinin Hüseyn Rasizadənin atası Hacı Molla Abdullaya

[1] Cəlil Məmmədquluzadə. Əsərləri, 4 cilddə, IV cild, (tərtib edəni və izahların müəllifi İ.Həbibbəyli). Bakı: Öndər, 2004, s. 53.



yazdığı bir məktubdan aydın olur ki, ruhani ata əvvəlcə "Tərbiyə" məktəbinə inam bəsləməmişdir. Hacı Molla Abdulla belə bir qənaətdə imiş ki, "Tərbiyə" məktəbinin axırı yaxşı qurtarmayacaq. Bizim bütün uşaqlarımız dinsiz və məzhəbsiz tərbiyələnəcəklər".[1] Lakin Molla Abdulla kişi ilə Məhəmməd Tağı Sidqi və Qurbanəli Şərifzadənin apardığı söhbətlər və oğlu Hüseyn Rasizadənin öz müəllimi haqqında dediyi xoş sözlər dindar atanın fikrini dəyişmişdir. Beləliklə, Hüseyn Rasizadə "Tərbiyə" məktəbində təhsilini axıra qədər davam etdirmək imkanı qazanmışdır. Molla Abdullanın Məhəmməd Tağı Sidqiyə yazdığı məktubda artıq ruhani ata Məhəmməd Tağı Sidqinin xidmətlərinə aydın nəzərlərdə baxdığını və oğlunun aldığı təhsildən razı qaldığını bildirmişdir.

Gənc Hüseyn Cavid sevimli müəllimi Məhəmməd Tağı Sidqinin açdığı məktəbdə elmi-ilahi fənni ilə yanaşı, dünyəvi elmləri də öyrənmişdir[2]. Müasirləri tərəfindən "yeniyetmə müəllim və ədiblər üçün darülürfan"[3] adlandırılan "Məktəbi-Tərbiyə"nin zəngin ədəbi-maarifçi mühiti Hüseyn Rasizadədə ədəbiyyata, bədii yaradıcılığa böyük maraq oyatmışdır. O, "Tərbiyə" məktə-

[1] Məhəmməd Tağı Sidqi. Əsərləri, tərt. ed., müqəd.: İ.Həbibbəyli. Bakı: Çaşıoğlu, 2004, s. 213.

[2] İsa Həbibbəyli. Ədəbi-tarixi yaddaş və müasirlik, Bakı: Nurlan, 2007, s. 126.

[3] Cəlil Məmmədquluzadə. Getdi cahandan həzrəti-Sidqi // "Şərqi-Rus" qəzeti, 30 yanvar 1904-cü il, № 11.

binin şagirdi kimi klassik poetik üslubda Azərbaycan və fars dillərində ilk qələm təcrübələrini yazmağa başlamışdır. Məhəmməd Tağı Sidqi xüsusi istedadı ilə seçilən Hüseyn Rasizadənin dərsləri ilə yanaşı, şeir yaradıcılığı ilə məşğul olmasına da diqqət və qayğı ilə yanaşmış "bədii yaradıcılıqda da ona müəllimlik etmişdir".[1] Müəlliminin sinifdə şagird yoldaşlarının yanında şeirlərini dinləyib müzakirə etməsi və yüksək qiymətləndirməsi gənc qələm sahibini bədii yaradıcılığa daha da həvəsləndirmişdir.

"Gülçin" təxəllüsü ilə şeirlər yazan Hüseyn Rasizadənin "Verdim o gün ki, zülfi-pərişana könlümü" misrası ilə başlanan qəzəlinin dərs prosesində müəllimi Məhəmməd Tağı Sidqinin və şagird yoldaşlarının iştirakı ilə keçirilmiş müzakirəsi ilə bağlı yaddaşlarda qalmış bir əhvalat həmin müzakirələrin gənc qələm sahibinin ideya-mənəvi təkamülündə mühüm yer tutduğunu göstərir. Akademik Məmməd Cəfərov hələ XX əsrin əllinci illərində Hüseyn Cavidlə birlikdə "Tərbiyə" məktəbində oxumuş keçmiş şagird yoldaşlarından eşidib qələmə aldığı həmin əhvalatı aşağıdakı kimi təsvir etmişdir: "Hüseyn bu qəzəli məktəbli yoldaşlarının yanında müəllimi Sidqiyə oxuduqda, Sidqi demişdi: "Mən atan Molla Abdullanın yerinə olsaydım və Gülçin kimi bir sair oğlum

[1] Məmməd Cəfər. Hüseyn Cavid. Bakı: Elm və təhsil, 2019, s. 40.



olsaydı, rövzəxanlığı buraxıb, xanəndəlik edərdim və öz oğlumun qəzəllərini oxuyardım".

Şagirdlərdən birinin: - Müəllim, bu günlərdə Hüseynin atasının səsi batmışdır, mərsiyə oxuya bilmir – replikasına cavab olaraq Sidqi yenə zarafatla demişdir: - Bəlkə elə oğlunun səsi atasının səsini batırıb.

Hüseyn utana-utana: - Mənim heç yaxşı səsim yoxdur – dedikdə müəllim:

- Var, sənin çox yaxşı səsin var, demişdir. – Amma öz aramızdır, rövzəxanların səsini batıran səsə oxşayır.... Özünü gözlə, bu iki səs bir-birini batıran səslərdir".[1]

Gənc Hüseyn Rasizadə 1899-cu ildə "Tərbiyə" məktəbini bitirmişdir. Məhəmməd Tağı Sidqi və "Məktəbi-Tərbiyə" onun dünyagörüşünün formalaşmasında və bədii yaradıcılıq sahəsində öz yolunu müəyyən etməsində mühüm rol oynamışdır. O, məktublarında taleyində böyük rolu olmuş Məhəmməd Tağı Sidqini "böyük ustad və cəlallı atamız"[2] deyə qiymətləndirmiş, Qurbanəli Şərifzadəni "həqiqi el müəllimi"[3] adlandırmışdır. Məhəmməd Tağı Sidqinin vəfatı ilə əlaqədar yazıb "Şərqi-Rus" qəzetində çap etdirdiyi "Urmiyədən məktub" adlı məqaləsinin sonundakı poetik nümunə Hüseyn Rasizadənin ilk mətbu şeiri olmaqla bərabər, həm ədəbi-mədəni mü-

[1] Məmməd Cəfər. Hüseyn Cavid. Bakı: Elm və təhsil, 2019, s. 41.
[2] Hüseyn Cavid, Əsərləri, 5 cilddə, V cild, Bakı: Elm, 2007, s. 297
[3] Yenə orada, s. 289.

36. Seyid Hüseyn. "Ölülər" haqqında təəssürat // "Açıq söz" qəzeti, 1 may 1916-cı il, № 73.
37. Yaşar Qarayev. Realizm: Sənət və həqiqət. Bakı, 1980.
38. Yaşar Qarayev. Seçilmiş əsərləri. 5 cilddə, IV cild. Bakı: Elm, 2016, 772 s.
39. Türkan Əfəndiyeva. Azərbaycan dilinin bədii ifadə vasitələri. Bakı, 1973, s. 60.
40. Vissarion Belinski. Seçilmiş məqalələr. Bakı: Uşaqgəncnəşr, 1948, s. 82.
41. Vanslov V.V. Poetika romantizma. Moskva. 1960.



## BƏLƏDÇİ

Giriş....3
Həyatı....14
Ədəbi fəaliyyəti....27
Şeir yaradıcılığı....30
Poemaları....56
Dramaturgiyası....63
"İblis" faciəsi....73
Dramlarında lirizm....78
Nəticə....93
Ədəbiyyat....95

## "Sənətkarın elmi pasportu" seriyasından çap olunmuş kitablar

1. **Əbdürrəhim bəy Haqverdiyev. Həyatı və yaradıcılığı (kollektiv).** Bakı, "Elm və təhsil", 2018, 332 s.
2. **Yadigar Əsgərova. Səməd Mənsur. Həyatı və yaradıcılığı.** Bakı, 2019. 176 s.
3. **Böyük Azərbaycan şairi İmadəddin Nəsimi (kollektiv monoqrafiya).** Bakı, "Elm", 2019, 400 s.
4. **Firudin Qurbansoy. İmadəddin Nəsimi.** Bakı, "Elm", 2019, 136 s.
5. **Lətifə Mirzəyeva. Kərim Məşrutəçi Sönməz.** Bakı, "Elm və təhsil", 2019, 184 s.
6. **Akademik Məmməd Cəfər Cəfərov: şəxsiyyəti və yaradıcılığı (kollektiv monoqrafiya).** Bakı, "Elm və təhsil", 2019, 208 s.
7. **Abid Tahirli. Ceyhun Hacıbəylinin həyat və yaradıcılıq yolu.** Bakı, "Elm və təhsil", 2019, 344 s.
8. **Uşaq ədəbiyyatında Xanımana Əlibəyli imzası. (kollektiv monoqrafiya).** Bakı, "Elm və təhsil", 2020, 148 s.



9. **Əfzələddin Xaqani. Həyatı və yaradıcılığı (kollektiv monoqrafiya).** Bakı, "Elm və təhsil", 2020, 395 s.
10. **Mehman Həsənli. Çingiz Aytmatov fenomeni və Azərbaycan.** Bakı, "Elm və təhsil", 2020, 406 s.
11. **Almaz Ülvi. Əlişir Nəvainin əsri və nəsri (elmi-filoloji və dini-təsəvvüf əsərləri).** Bakı, "Elm və təhsil", 2020, 570 s.
12. **İslam Qəribli. Məhəmməd Hadi: həyatı və yaradıcılığı.** Bakı, "Elm və təhsil", 2020, 570 s.
13. **Elmira Babayeva. Mövlud Süleymanlı: həyatı və yaradıcılığı.** Bakı, "Elm və təhsil", 2020, 204 s.
14. **Lətifə Mirzəyeva. Həsən Məcidzadə Savalan: həyatı və yaradıcılığı.** Bakı, "Elm və təhsil", 2020, 200 s.
15. **Solmaz Daşdəmirova. Pərvin Etisaminin həyat və yaradıcılığı.** Bakı, "ULU" İKF, 2020, 68 s.
16. **Teymur Əhmədov. Nəriman Nərimanov (həyatı, mühiti və ədəbi-bədii yaradıcılığı).** Bakı, "Nurlar", 2020, 552 s.
17. **Əlizadə Əsgərli. Teymur Əhmədov: ədəbiyyat və mətbuat xadimi.** Bakı, "Nurlar", 2020, 338 s.
18. **Muxtar Auezov: həyatı və yaradıcılığı (kollektiv).** Bakı, "Elm və təhsil", 2020, 180 s.
19. **İsa Həbibbəyli, İsmixan Osmanlı. Qabdulla Tukay və Azərbaycan.** Bakı, "Elm və təhsil", 2021, 536 s.

20. **Bədirxan Əhmədli. Rabindranat Taqor: Yeni Hindistanın manifesti.** Bakı: "Elm və təhsil", 2021, 372 s.
21. **Xalq şairi Sabir Rüstəmxanlı: həyatı və yaradıcılığı (kollektiv).** Bakı, "Elm və təhsil", 2021, 484 s.
22. **Salidə Şərifova. Fərəc Fərəcov yaradıcılığının problematikası, janr müxtəlifliyi və bədii xüsusiyyətləri.** Bakı, "Qanun", 2021, 164 s.
23. **İsa Həbibbəyli. Molla Pənah olan Vaqif.** Bakı, "Elm və təhsil", 2021, 160 s.
24. **Bəsirə Əzizəli. Məhəmməd İqbal. Eşq və düşüncə şairi.** Bakı, "Elm və təhsil", 2021, 228 s.
25. **Nizami Gəncəvi: həyatı və yaradıcılığı (kollektiv).** Bakı, "Elm", 2021, 982 s.
26. **Qəndab Haqverdi. Fədai Şair Qaflantının həyatı və sənəti.** Bakı, 2022, 232 s.
27. **İsa Həbibbəyli. Məhəmməd Tağı Sidqinin həyatı və ədəbi-maarifçi fəaliyyəti.** Bakı, "Elm və təhsil", 2022, 84 s.
28. **Mahmizər Mehdibəyova. Zeynalabdin Marağalının həyatı, mühiti və yaradıcılığı.** Bakı, "Elm və təhsil", 2022, 178 s.
29. **İslam Qəribli. Xurşidbanu Natəvan: həyatı və yaradıcılığı.** Bakı, "Elm və təhsil", 2022, 280 s.
30. **İsa Həbibbəyli. Akademik Məmməd Cəfər Cəfərovun həyatı və bədii yaradıcılığı.** Bakı, "Elm və təhsil", 2022, 152 s.



31. **Molla Pənah Vaqif. Həyatı və yaradıcılığı (kollektiv).** Bakı, "Elm və təhsil", 2022, 342 s.
32. **Əlizadə Əsgərli. Bəxtiyar Vahabzadə (həyatı, mühiti və yaradıcılığı).** Bakı, "Elm və təhsil", 2022, 556 s.
33. **İsa Həbibbəyli. Hüseyn Cavid (həyatı və sənəti).** Bakı, "Elm və təhsil", 2022, 104 s.

*akademik*
**İsa Həbibbəyli**

# HÜSEYN CAVİD
# Həyatı və sənəti

*"Sənətkarın elmi pasportu"*
*seriyasından 33-cü kitab*

Nəşrə hazırlayanlar:

**Əzizağa Nəcəfzadə**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Cavid Cəfərov**
*Tarix üzrə fəlsəfə doktoru, dosent*

---

Yığılmağa verilmiş: 12.10.2022.
Çapa imzalanmış: 22.10.2022. Həcmi: 6.5 f.ç.v.
Format: $60x84^1/_{16}$. Ofset kağızı.
Ofset çap üsulu. Tiraj: 200.

*"Elm və Təhsil" NPM-nin mətbəəsində*
*hazır elektron fayllardan çap olunmuşdur.*
*Ünvan: Səbail r-nu, İçəri Şəhər, 3-cü Maqomayev küç.,8,*
*mən. 4. AZ1000, Bakı ş.*
*Tel: +994 12 4971632*